# KOROĞLUNUN DÖVRÜ, ŞƏXSİYYƏTİ HAQQINDA

***Elza İSMAYILOVA***
*(Xəzər Universitəsi)*

Qəhrəman, aşıq Koroğlu haqqında məlumatlar onun XVI əsr Türkiyəsində yaşadığını bildirir.Həmin əsrdə Türk – Osmanlı imperiyası dünyanın tanınmış dövlətlərindən birinə çevrilmişdi. Xüsusən Osmanlı imperatorluğunun fatehlik siyasətinin gücü etiraf edilirdi.Ancaq o dövrdə Türkiyə daxildə ilk növbədə iqtisadi cəhətdən sıxıntılı vəziyyətdə idi.Vergilərin durmadan artması, maddi, mənəvi zülm getdikcə əhalinin ciddi narazılığına səbəb olurdu. İqtisadi böhran təbii olaraq daxili siyasi ziddiyyətlərə gətirirdi. Bu ziddiyyətlərin geniş vüsət alması siyasi üsyanlarla nəticələndi. 1518-ci ildə Toqatda Şeyx Cəlalın rəhbərliyi ilə üsyan başladı. Sonralar (XVII əsrin əvvəlinə qədər) davam edən üsyanların əslində mənbəyi oldu. Bu üsyanlara *Cəlali* adı verilməsi bununla şərtlənir.

Cəlalilər öz dövrlərində Osmanlı imperiyasının apardığı müharibə şəraitindən üsyanlar üçün istifadə edirdilər. 1592-1606-cı illərdə Osmanlı dövlətinin Avstriya ilə müharibəsi Cəlalilərə üsyanı davam etdirməyə şərait yaratmışdı. 1598-ci ildə Əbdülhəlim Qara Yazıçı üsyanı geniş yayılmışdı. O, əslində, partizan dəstələri yaratmış, bu dəstələrə rəhbərlik edən bacarıqlı üsyançılar yığmışdı.

Qara Yazıçı 1601-ci ilin avqustunda Göksün yaylasında Sokolluzadə Hasan paşa ilə savaşda məğlub olur, yanındakı Cəlalilərlə Canik dağlarına (Samsunun şərq tərəfi) sığınır və o qış orada ölür[1]. Onun işini qardaşı Dəli Həsən davam etdirir. 1602-ci ilin iyun ayında Dəli Həsənin rəhbərliyi ilə Cəlalilər Toqatda Hasan paşanı tüfənglə vurub öldürürlər. Dəli Həsən dəstəsi ilə qərbə doğru hərəkət edir, Kütahyaya qədər gəlir. 1602-ci ilin sonlarında Afyonkarahisarına qışlağa çəkilir. 1603-cü ilin fevralından Cəlalilərə dönük çıxır, üsyandan vaz keçir, hökumətlə barışır. 1603-cü ilin baharında tabeliyində olan 10 min adamla Rumelinə keçir. Rumelində ona Bosniya bəylərbəyiliyi, yeddi silahdaşına isə sancaq bəyliyi verilir.

Rumelinə keçən Cəlaliləri dərhal müharibəyə (Avstriya – Osmanlı müharibəsi) göndərdilər. Müharibədə Cəlalilər şəxsi heyətin üçdə iki hissəsini – 6000 şəhid verirlər. Cəlali başçısı Dəli Həsən də xalqla yola gedə bilmədiyi üçün Bosniyada edam olunur[2].

Dəli Həsənin Bosniyaya getməsindən sonra Anadoluda qalan silahdaşları hər tərəfə səpələnərək Cəlaliliyi davam etdirirlər. Sərdar Nuh paşanın dediyi kimi, "Bir Dəli Həsən yerinə yüzü ortaya çıxdı". Üsyanlar bütün Anadolunu bürümüş, böyük bir qorxu yaratmışdı.

---

[1] F.Sümer. Oğuzlar. – B.: Yazıçı, 1992. – S.180, 193-194.
[2] Naima. Tarih, C.I. – S. 439.-- M.Aкdağ. Celali İsyanları.– İst., 1995. – S.406.

Üsyanların geniş yayıldığı bir dövrdə Koroğlu kimi ünlü bir Cəlali meydana çıxdı. Koroğlunun şəxsiyyəti həmişə mübahisələr doğurmuşdur. Bunu müəyyən etmək üçün tarixçi və etnoqrafların əsərləri, səyyah və folklorsevərlərin topladığı materiallar, əlyazmaları, Mühimmə dəftərləri (Mühimme defterleri – Vilayetlere, sancaklara ve kadılıklara yollanan "Padişah hükümleri"nin suretleri bu defterlerde bulunuyor[3]), mərkəzdən göndərilən əmrnamələr, müxtəlif Osmanlı sənədləri, Bolunun Şeiriyyə Sicilləri (*Məhkəmə dəftərləi – **E.İ.***) və s. əsas qaynaqlardır.

Türkiyədə Başbakanlık (Baş Nazirlik) arxivində saxlanılan Mühimmə dəftərlərinin səkkizində Koroğlunun tarixi şəxsiyyəti ilə bağlı məlumat verilmişdir. P.N.Boratav 1, 3 və 4 saylı sənədlərdən qısaca danışmışdır (II.Tarih Kongresi, Ankara, 12-20 Kasım 1943). Daha sonra Faruk Sümer bir məqalədə 8 sənədin fotosurətini vermiş (TDA, S: 46, 1987, s.9-46), Koroğluya aid müxtəlif bilgilər verilmiş bu sənədlərdə (16 Ramazan 988 (25 Ekim 1580), 7 Rebiülevvel 989 (11 Nisan 1581), gurre-i Cemaziyelevvel 989 (3 Haziran 1581), 3 Zilkade 989 (29 Kasım 1581), 4 Muharrem 990 (29 Ocak 1582), gurre-i Şaban 991 (20 Ağustos 1583), 9 Şaban 992 (16 Ağustos 1584) ve 6 Rebiülevvel 993 (8 Mart 1585) Geredənin Soyuk (Sayık – *Bu kənd C.Anadolun "Koçyiğit Köroğlu" kitabının 18-ci səhifəsində Sayalık kimi göstərilir –**E.İ.***) kəndindən olan Koroğlu Rövşənin civar qəzalarda ev və kəndlər basıb adam öldürdüyü və yaraladığı, qız və oğlanları qaçırdığı, yol kəsib adam soyduğu, ətrafındakı adamların çoxaldığı və buna görə də xalqın kəndləri tərk etdiyi, tutulması üçün qazılara (kadılara) əmr verilib, üstünə adam göndərildiyi halda yaxalanmadığı göstərilir.

İslam Ensiklopediyasında göstərilir ki: "Bu arxiv sənədləri başda olmaqla, mövcud məlumatlar əsasında Koroğlunun həyatını üç hissədə tədqiq etmək olar. Bu sənədlərin yeddisi Koroğlunun Boluda keçən həyatına aiddir. Məlum olur ki, adı Rövşən olan Koroğlu 1580-1584-cü (hicri 988-992-ci) illər arasında öz məmləkətində – Boluda yolkəsənlik, quldurluq etmişdir. Buna əsas səbəb 1578-ci ildə dövlətin İrana savaş açması, Bolu və ətrafındakı əsgərlərin böyük bir bölümünün savaşa getməsidir. Bu durum Koroğluya və bir sıra başqalarına yolkəsənlik etmək üçün fürsət vermiş, onların işinə yaramışdır. Koroğluya qarşı cəza tədbirləri ən azından gecikdirilmişdi.

Koroğlu qaçaqçılıq həyatının ikinci hissəsini dağlarda – Çamlıbeldə keçirmişdir. Səkkizinci sənəddə 1585-ci ildə Koroğlunun Bolu sancağında deyil, Ankaranın Güneyindəki Haymanada olduğu göstərilir. Orada onun tutulmasına dövlət əmr vermişdi. Koroğlu yerini dəyişmiş, Toqat ilə Sivas arasındakı karvan yolu üzərində yerləşmişdi. O, Çamlıbeldən gəlib keçən karvanlardan yol bacı alıb özünü və ətrafındakıları dolandırmışdı.

Koroğlu həyatının üçüncü hissəsində Çamlıbeldə Osmanlı qüvvələri tərəfindən sıxışdırılmış, İrana qaçmış və Şah Abbasın xidmətinə girmişdi. Bu dönəmdə

[3] M.Aкdağ. Celali İsyanları.– İst., 1995. – S. 30.

yazılmış bir sənəddə (Vekayinamədə) 1603-cü ildə şahın Osmanlılardan Naxçıvanı aldığı vaxt Koroğlunun Osmanlı xidmətində olan Sadlu Ali Kulu bəyi, oğlunu və anasını Pasin obasında tutub şaha göndərdiyi qeyd olunur (Celal Müneccim-i Yezdi. Tarih-i Abbasi, Britiş Museum, Or., nr. 3549, vr.120b -121a – İslam Ansiklopedisi. – İst., 2002, C.26. – S.269). "Koroğlu" hekayələrinin Azəri rəvayətində (Paris nüsxəsi nəzərdə tutulur –***E.İ.***) Şah Abbasın Koroğlunu öldürtdüyü qeyd edilir"[4].

Bu sənədlərin içərisində ən tutarlı tarixi mənbə olan Mühimmə dəftərlərindən bir neçəsinə diqqət yetirək. *42 saylı Mühimmə dəftərinin 75-ci səhifəsindən:* Anadolu beylerbeğisine hüküm... Gerede kazasından Köroğlu ve Kıbrıs (Kipr –***E.İ.***) kazasından Çakaloğlu maruf eşkiya baş kaldırup celali olup memleket yakup yıkmaya başladıklarından ehali-i vilayetten nice kimseler terk-i diyar ediyorlarmış[5]; *51 saylı Mühimmə dəftərinin 67- ci səhifəsindən:* "Çorum Beyi olup Bolu muhafazasına memur olan Behram Beyin mektubuna göre, Bolu sancağında Köroğlu ve Çakal denen haramiler nice bid'atlar ile Abdullatif adlı bir kadıyı katledüp..."[6]; *75 saylı Mühimme dəftərinin 207- ci səhifəsindən:* "İçel beyine ve İvgadi ve Elvanlu ve Karataş ve Sarıkavak kadılarına hüküm ki: İçel sancağında vaki olan kadılar mirliva kaymakamı Mahmud südde-i seadetime mektup gönderüp Hasankeyf sancağı beyi Memhed (yəqin ki, Mehmed – ***E.İ.***) bazı eşkiya levendat taifesiyle livay-i mezburda suhte taifesi vardır muhafazasına memurum deyu birkaç yüz atlu ve sekban ile ve Ermenaklu Seydi ve yerlüden Ali Çavuş ve... Kara Mürsel ve *Köroğlu* ve... *Kasap İsa* ve oğlu ve *Demürcü* ve *Hasan, Sefer* ve *Yusuf...* Ömer Çavuş oğlu Ali ve bunların emsali eşkiya ile il üzerine çıkup fukaranın emval ve erzakların garet ve evlerin ihrak edür iki yüzden ziyade adam katledüp..."[7]; *3 saylı Mühimmə dəftərinin 132-ci səhifəsindən:* Məşhur Koroğlu Rövşənin bölüyün başında duraraq 989-cu il (1581) tarixində Gərədə ilə Bolu arasında soyğunçuluq etdiyi göstərilir. Bu tarixdə Cəlali kimi tanınan Koroğlunun 992-ci ildə (1584) fəaliyyətini davam etdiriyi, məmur və qazıların isə qorxudan onun əməllərini gizlədikləri bildirilir[8].

Koroğlunun şəxsiyyəti və dastandakı hadisələrin tarixiliyi ilə bağlı çeşidli fikirlər söylənilir. Cəlali üsyanı başçılarından biri kimi adı salnamələrə düşmüş bir bahadır, həm də məşhur aşıq-şair Koroğlu haqqında erməni tarixçisi Arakel Təbrizli (1595, Təbriz –1669) "Tarix kitabı"nda yazır: "Koroğlu (Bu, həmin Koroğludur ki, indi aşıqların oxuduğu saysız-hesabsız nəgmələr qoşmuşdur), Giziroğlu Mustafabəy min nəfər ilə (O, Koroğlunun silahdaşıdır, onun adı Koroğlunun nəğmələrində xatırlanır), sonra Mustafabəy, Qaraqaş, Dəli Nəsib, Yolasığmaz, Tanrıtanımaz, Göyəbaxan Çıplaq, Kosa-kosa, Qırlı, Qara Saad, Ağacanpiri – hamısı Cəlali idilər"[9] .

---

[4] İslam Ansiklopedisi. – İst., 2002, C.26. – S. 269.
[5] M.Aкdağ. Göstərilən əsəri. – S. 298.
[6] Yenə orada. – S. 298.
[7] M.Aкdağ. Göstərilən əsəri. – S.519.
[8] F.Sümer. Oğuzlar. – B.:Yazıçı, 1992. – S.193.
[9] А.Даврижеци. Книга истории. – М., 1973. – Стр. 94-95.

Onu da qeyd edək ki, Arakel Təbrizlidən gətirdiyimiz sitatdakı Cəlali bəylərinin adları M.Akdağın “Cəlali üsyanları” kitabında bir az fərqli şəkildə verilmişdir. Yuxarıdakı sitatda verilmiş Ağacanpiri əvəzinə, Mustafa Akdağın kitabında Ağacdanpiri[10], Tanrıtanımaz – Tanrıbilməz[11], Yolasığmaz – Qəbrəsığmaz[12], Qara Saad – Qara Sait[13], Dəli Nəsib – Dəli Nasuh[14] şəklində işlənmişdir.M.Akdağ Cəlali bəyləri haqqında danışarkən müxtəlif tarixi sənədlərə əsaslanmışdır.

XVII əsrin türk səyyahı, coğrafiyaşünas Evliya Çələbi “Səyahətnamə”sində Koroğlunu Cəlalilər sırasında göstərir. Türk tədqiqatçısı Enver Uzun yazır: “Evliya Çelebi de meşhur “Seyahatnamesi”nde 1658 yılında Anadolu`ya Celali üzerine gidiş hikayesinde “İç ağalar alayı”ndan bahsederek, Köroğlu`nun da bu alayın askerleri arasında olduğuna işaretle Celali Haki Emir Celebi gibi “Çöğür” (*Çoğur* – simli, mizrabla səsləndirilən musiqi alətidir. Bəzi mənbələrdə orta əsrlərdə bu alətin *çoğur, çoğor* və ya *çuxur* kimi adlandırıldığı da göstərilir. Hazırda çoğurdan M.Kərimovun rəhbərlik etdiyi “Qədim musiqi alətləri” ansamblında istifadə edilir – ***E.İ.***)[15] çalmadığını kaydederek Köroğlu`nun Anadolu halkına ait olduğuna işaret edir"[16].

C.Öztelli də E.Çələbinin Koroğlu haqqında məlumat verdiyini ayrıca qeyd edir: “Evliya Çelebi (1611-1682) Seyahatnamesinin birinci cildinde İstanbul esnafını sayarken “Sazendegan ve Çögürciyan”dan söz eder, Köroğlu’nu da anar. Yine Evliya Çelebi, eserinin beşinci cildinde, Dördüncü Mehmet, eşkiyayı idam ettirdiği sırada geçen bir olay dolayısıyla ünlü saz şairlerini ve bu arada Köroğlu`nu söyler”[17].

Evliya Çələbi həm də Koroğlunun “Bolu – Çerkeş bölgələrində “yaşamış” bir haydut (soyğunçu, quldur – ***E.İ.***) olduğundan söz açır. Evliya Çələbinin dediyinə görə, bir qürub vaxtı Çerkeşdən çıxırlar. Tosyaya doğru gedərkən yolda soyğunçular onları soymaq istəyirlər. O zaman Evliya Çələbi onlara: “Ey Gaziler! Sizin ettiğinizi bu dağlarda eşkiyalık eden Köroğlu yapmamıştır, ilh...” diye tesirli bir müraciətlə haramilərin hamısını yumşaldır[18].

Koroğlunun tarixi şəxsiyyətini sübutlayan dəlillərdən biri də Elyas Muşeqyanın 1721-ci ildə tərtib etdiyi “Nəğmələr” adlı əlyazmasıdır. Müəllif bu əlyazmasında Koroğludan erməni əlifbasıyla on üç müstəqil şeir parçası vermişdir. O şeirlərdən birində Koroğlunun Cəlali olması fikri bir daha təsdiqlənir:

---

10 M.Akdağ. Göstərilən əsəri. – S. 475.

11 İbnülemin, şükr-ü, şikayet, karton 1, № 94 – M.Akdağ. Göstərilən əsəri. – S.428, 520.

12 Yenə orada. – S.428.

13 Ankara Ş.Sc. № 9, S.329, 330; №10, S.42, 73, 146. – M.Akdağ. Göstərilən əsəri. – S. 436, 473.

14 Müh. def. 69, S.206; 71, S.234 – M.Akdağ. Göstərilən əsəri. – S.337.

15 Ə.Bədəlbəyli.İzahlı monoqrafik musiqi lüğəti. – B.: Elm, 1969. – S.79; ASE, X cild. – B., 1987. – S.450; A.Nəcəfzadə. Azərbaycan çalğı alətlərinin izahlı lüğəti.– B., 2004. – S.65, 66.

16 E.Çelebi. Seyahatname .– İst.: “Üçdal Neşriyyat”, 1978, C.5. – S.1624. – E.Uzun. Koroğlu. – Trabzon, 1997. – S.90.

17 C.Öztelli. Köroğlu, Dadaloğlu, Kuloğlu. – İst., 1984. – S.121.

18 Yenə orada. – S.121.

*Koroğlu alur salamı*
*Nə bürülür halal-haramı broy!*
*Yeddi yüz yetmiş calalı,*
*Yar dəlüə qurban olayım*[19].

Eyni zamanda bu əlyazmada göstərilir ki: "Koroğlu İran şahı Şah Abbas və Türkiyə sultanı Sultan Muradın hakimiyyəti dövründə çoxsaylı atlıların başında duraraq yollarda ağalıq edirdi; bəzən keçən tacirləri soyur, bəzən də onlardan razılıqla pul alırdı" [20].

Türk tarixçisi Mustafa Akdağ da Koroğlunun tarixi şəxsiyyət olmasını təsdiqləyir[21]. O, Mühimmə dəftərinə isnad edərək yazır: "Elimizdeki vesikalara göre, ilk tanınmış levend bölükbaşı, yahut daha uyğun bir deyimle, Celali Reisi, Bolu ile Gerede arasında, 1581`den itibaren, ikiyüz kişilik bir grupla soyğunculuğa başlayan ve Köroğlu efsanesinin kahramanı olan Köroğlu Ruşen`dir"[22].

"Koroğlu" dastanının əksər variantlarında da Koroğlunun öz adının Rövşən olduğu deyilir.Tiflis nüsxəsində Rövşən Əli kimi də göstərilir. Variantlardan bir neçəsinə diqqət yetirək:

*Adım xəbər alsan Aşıq Rövşandu,*
*Bolu paşa, mən Koroğlu deyiləm*[23].

*Öz adım Rövşəndi, atam Alıdı,*
*İnan Bolu, mən Koroğlu deyiləm*[24].

*Aşıq Roşan*, daxi səni qoymaram özgə yerə gedəsən; Koroğluyam, adım *Rövşən Əlidür*[25].

Mustafa Akdağ Koroğlunu Cəlali üsyanlarının ilk bayraqdarı hesab edir: "Fakat, bizim tahminimize göre, bu tanınmış eşkıyabaşının, bütün Celali isyanlarının mahiyetini ve karakterini aksettiren, "Köroğlu" adındaki halk destanlarının yegane kahramanı olarak ebedileşmesinin sebebi, Celali isyanlarının ilk bayrakdarı olmasındadır. Yaşadığı sahaların İstanbul – İran askeri yolu üzerine - rastlaması, şekavetini ayrıca popüler kılmıştır, denebilir"[26].

F.Sümerin yazdığına görə, o əsrdə ən işlək ticarət yollarından biri olan Toqat –Sivas yolundan İran (Əcəm) karvanları keçirdi. Koroğlu hökumət qüvvələrinin

---

[19] Azərbaycan dastanları, IV cild . – B.: Azərnəşr. –1969. – S.473.
[20] Б.А.Каррыев. Эпические сказания о Кер-оглы у тюркоязычных народов . – М., 1968. – Стр.10.
[21] M.Aкdağ. Celali İsyanları. – İst., 1995. – S. 265, 288, 291, 298-302, 317, 346, 386.
[22] M. Aкdağ. Göstərilən əsəri. – S. 298.
[23] Koroğlu (Paris nüsxəsi). – B.: Ozan, 1997. – S.171.
[24] Azərbaycan dastanları, IV cild. – B.: Azərnəşr. – 1969. – S. 288.
[25] Koroğlu (Tiflis nüsxəsi). – B.: Səda. – S. 222
[26] M.Aкdağ. Göstərilən əsəri. – S.299.

sıxışdırması nəticəsində yurdundan çıxaraq Toqat – Sivas ana yolu üzərindəki Çamlıbel dağına getmişdi. O, İstanbul –Təbriz əsgəri yolu üzrə hərəkət etmiş, dostları ilə birlikdə buradan keçən karvanları soymağa başlamışdı[27].

Əndəlib Qaracadağinin "Şeirlər məcmuəsi"ndə (1804) toplanmış Koroğlu şeirləri onun aşıq-şairliyini təsdiqləyən dəlildir.

Koroğlunun XVI əsrin sonu – XVII əsrin əvvəllərində yaşadığını qaynaqlar təsdiqləyir. Ancaq qaynaqlarda göstərilən qaçaq, quldur Koroğlu xalq yaradıcılığında ideallaşmış qəhrəman surətinə çevrilmişdi.

Koroğlunun Cəlali hərəkatı ilə bağlılığının əks-sədasını dastanın özü ilə müqayisəli izləmək maraqlıdır. Dastanın Paris və Tiflis nüsxələrində Koroğlunun *Cəlali Koroğlu* adlandırılması (*Qoç Koroğlu qədəm qoyub meydanə,/ Düşmənlərin batırubdur al qanə, /Bac verməyüb İstambulda sultanə, /Görməmisən mənim kimin **Cəlali***[28]), həmçinin dastanda Tərcəm (bu yerin ya Tercil (Amid – indiki Diyarbəkir – ***E.İ.***) sancağında nahiyə[29], ya da Tercan (Erzincandan 88 km uzaqlıqda yerləşir – ***E.İ.***) olduğu ehtimal edilir) elindən olan ***Nəzər Cəlali*** (Paris və Tiflis nüsxələri) və ***Həsən Cəlali*** (Tiflis nüsxəsi) kimi şəxslərin iştirakı göstərir ki, Koroğlu Cəlali üsyanları ilə bağlıdır.

Koroğlu silahdaşlarının prototipləri də tarixi şəxsiyyətlərdir. Cəlalilər dövrünün salnamələrində Dəli Həsən, Kosa Səfər, Giziroğlu Mustafa bəy, Tanrıtanımaz və başqa Cəlalilər ayrı-ayrı bölükbaşıları kimi göstərilirlər.

P.N.Boratavın yazdığına görə, İsmail Hakkı Uzunçarşılı Başbakanlık arxiv sənədləri içində Koroğlu ilə bağlı sənədlər də tapıb. Bu sənədlərdə "Kiziroğlu, Demircioğlu, Mahmut Bezirgan, Kasap İsa (İsa Balı), İvaz, Hasan, Sefer ve Yusuf" adlı Koroğlu silahdaşlarının adlarına rast gəlinir[30].

Dastanın adlı-sanlı dəlilərindən olan Dəli Həsənin Cəlali, tarixi şəxsiyyət olması haqqında İstanbuldakı Süleymaniyyə Kitabxanasında saxlanılan Mühimmə dəftərlərində (№ 76, s.11, 331), Əsəd Əfəndinin əlyazmalarında (№ 2151, vr. 80), Ankara Şeiriyye Sicillərində (№ 7, s.334; №10, s. 146), Divan qeyd dəftəri (№ 150, s.75) kimi sənədlərdə, Abdülkadir Əfəndi (Vekayiname), Naima (c.I, s.327, 328, 439), İ.Peçevi (c.II, s.253, 270), Anna S.Tveritinova, M.Akdağ, F.Sümer və s. tarixçilərin əsərlərində, İslam Ensiklopediyasında ("Qara Yazıçı" bölməsi) məlumat verilir. M.Akdağ öz tədqiqlərində bu mənbələrdən istifadə edərək Dəli Həsənin tarixi şəxsiyyət olmasını bir daha təsdiqləyib[31].

Müxtəlif sənədlərdə (*Mühimmə dəftərlərində* – №61, s. 64; №64, s.122, 125; №66, s.176; №72, s.316, 331; Hüseyin Hüsamettin, *Amasya Tarihi*, c.3, s.355-364; Abdülkadir, *Vekayii Tarihiye*, s.107, *Şeiriyyə Sicilləri*) dastan iştirakçısı

---

[27] F.Sümer.Oğuzlar. – B., 1992. – S.193.
[28] Koroğlu (Tiflis nüsxəsi). – B.: Səda, 2005. – S.427.
[29] Ш.Мустафаев. Восточная Анатолия от Ак-Коюнлу к Османской империи. – М., 1994.– Стр. 99.
[30] P.N.Boratav. Halk Hikayesi ve Halk Hikayeciliği. – Anк., 1988. – S.137. – M. Eкici. Türк Dünyasında Köroğlu. – Ank., 2004. – S. 72.
[31] M.Aкdağ. Celali İsyanları. – S. 23, 24, 27, 342, 382, 389, 400 və s.

Giziroğlu Mustafa bəyin də Cəlali olması haqqında məlumat verilir[32]. Mühimmə dəftərində onun 250 atlı ilə hərəkətdə olduğu göstərilir (№ 64, s.122, 125).

Hüseyin Hüsamettin Giziroğlunun Altı-Bölükdən yetişdiyini diqqətə çatdırır: "Öyle görülüyor ki, Karayazıcı`nın etrafında toplanan Celali şeflerinin ekserisi (ve belki de hepsi) Altı-Bölük`ten yetişme sipah zorbaları idiler. Mesela, Arabaçı Süleyman, Arnavut Hüseyin, *Deli Zülfikar* Altı-Bölük`ten, Tekeli Mehmet, *Kizir Mustafa,* Dündar, Tepesi Tüylü, Yıldızlı İbrahim, Kafir Murad gibi meşhurlarının Altı-Bölük'ten yetişmə olduklarını biliyoruz"[33]. Tiflis nüsxəsində Koroğlunun adlı dəlilərindən sayılan *Zülfüqar bəyin* ("Zülfüqar bəg, yaxşı yerdə yetirdün, /İyidligün bu gün yeridür, yeri"[34]) də adı çəkilir. Müxtəlif tarixi sənədlərdə, o cümlədən Şeiriyyə Sicillərində də Dəli Zülfüqar haqqında qeydlər vardır[35]. Mustafa Akdağ isə Ankarada Hüsam Şeyxoğulları, Çankırıda Qara Vəli, Karamanda Cabbar Qulu, Malatya ilə Sivas tərəflərində Giziroğlu Mustafa bəy, Maraşda Əmrullah kimi qiyamçılardan söz açır[36].

M.Akdağ Dəmirçioğlunun da Cəlali olması haqqında müxtəlif qaynaqlar əsasında məlumatlar verib (Müh. def. № 46, s.135; İbnülemin, karton 3, № 609 ve 615)[37]. Misal üçün: "İzmir tarafından *Demirci Oğlu,* Haymana`da Aydın Yazıcı, Kırşehir`de Kulaksız Yusuf gibi, memleketin daha birçok yerlerinde görünmeye başlayan levend ve sekban bölükbaşıları, hep birer Köroğlu ruhu taşıyan kimselerdi. Daha Köroğlu devrinden beri, asiler İstanbul ile münasibette bulunuyorlar, şehirdeki birçok fesatları idare ediyorlardı"[38].

M.Akdağın yazdığına görə, tarixi qaynaqlarda – Başbakanlık arxiv sənədlərində Koroğlunun silahdaşı İsabalının da adı çəkilir[39].

Brosse, Arakel Təbrizli, Yeremiya Kömürçüyan, Mustafa Akdağ və s. Kosa Səfəri də Cəlalilərin tanınmış başçılarından biri hesab edirlər. M.Akdağ Brosseyə, Arakel Təbrizliyə əsaslanıb, Kosa Səfər Cəlalinin üsyan etdiyindən danışır (Üsyan tarixi A.Təbrizlidə 1599-cu il, M.Akdağda isə 1598-ci il göstərlir).

Ankara Şeiriyyə Sicilinin 6-cı sayında (hicri 1008 – miladi 1600 – ***E.İ.***) asi Kosa Səfərin Maraş bəylərbəyiliyində 400 atlı ilə fəaliyyət göstərdiyi, əhalini qətlə yetirib var-yoxlarını talan etdiyi qeyd edilir: "Vezir Mehmet Paşa Konya`ya yaklaştığında, bu vilayette faaliyyette bulunan Celali Hüseyin Paşa, süretle Şark`a doğru uzaklaştı, ve Yazıcı`ya katılmak üzere, Maraş Vilayetine geçti. Bu sırada, bu vilayette, "üç yüz nefer piyade ve atlu ile Maymun Davudoğulları ve dört yüze karib atlu ve sekban ile Köse Sefer ve iki yüz atlı ile

---

[32] M.Aкdağ .Göstərilən əsəri. – S. 317, 329, 330, 332, 342, 381, 401, 421.
[33] M.Aкdağ. Göstərilən əsəri. – S. 381.
[34] Koroğlu (Tiflis nüsxəsi). – B.: Səda, 2005. – S.296.
[35] M.Aкdağ.Göstərilən əsəri. – S. 381, 401.
[36] M.Aкdağ.Göstərilən əsəri. – S. 317.
[37] M.Aкdağ.Göstərilən əsəri.– S.432.
[38] M.Aкdağ. Göstərilən əsəri. – S. 299.
[39] Yenə orada. – S.137.

Osman Paşa Mütesellimi Ömer" bulunmakta idiler...". Bunu M.Akdağ da təsdiqləyir [40]. M.Akdağ kitabında Kosa Səfərlə Koroğlunun dost olmasını və Kosa Səfərin Qara Yazıçı – Dəli Həsən üsyanında iştirak etməsini də nəzərə çarpdırır.

"Azərbaycan tarixi" kitabında da onun 1599-cu ildə Şərqi Anadoluda olan çıxışı xüsusilə qeyd edilir. Göstərilir ki, Kosa Səfərin dəstəsi iğtişaşı 1602-ci ildə Ərzurumda davam etdirmişdir. Keçmiş Cəlali sonralar Ərzurum hakimi olmuş, Azərbaycana yürüş edən Cığaloğlunu müşayiət etmişdir. 1605-ci il noyabrın 7- də (Bu tarix ASE-nin VIII cildində 1603-cü il kimi göstərilir, s.406 –***E.İ.***) Təbriz yaxınlığındakı Sufiyan ətrafında gedən həlledici döyüşdə Osmanlı qoşunu ilə birlikdə məğlubiyyətə uğramışdır. O əsir düşüb, edam edilmişdir[41].

M.Akdağ Koroğlunun dəlilərindən olan Bəlli Əhmədin də tarixi şəxsiyyət olması xüsusunda məlumat verir. Dastandan fərqli olaraq, M.Akdağ Bəlli Əhməd əvəzinə, Bənli Əhməddən söz açır: "Barçınlı Kazası köylerinden kasabaya gelenler: "kasabat ve kurraya her bir zorba Celali eşkiyası ve Türkmen taifesi ve Karakaş zorbasından ayrılan sekiz yüz miktarı atlu ile Kafir Murad ve *Benli Ahmed* (Azərbaycan variantlarındakı Bəlli Əhməd – ***E.İ.***) zorbaları, müstevli olup, Müslümanların meccanen yem ve yemeklerini yiyüp kuruşlar salup oğlan ve kızlarını alup kızların saçlarını tıraş ettirüp oğlan gibi hizmet" gördürmekte olduklarını kadıya arz ile, İstanbül`a bildirilmesini istediler"[42].

Tanrıtanımaz (Azərbaycan variantında), Qəbrəsığmaz (türk variantında), Dilbilməz (Azərbaycan variantında) obrazlarının tarixi mənbələrdə adları qeyd edilir. Arakel Təbrizli Cəlalilərin adlarını sayarkən Tanrıtanımaz və Yolasığmazın (Qəbrəsığmaz əvəzinə) adlarını çəkir[43]. M.Akdağın anılan kitabında Tanrıbilməz, Qəbrəsığmaz və Dilsiz adlarına rast gəlirik: "Hacı Şamlu`nun kendisi, zorbabaşılarının namlılarından Kazdağlı, Köse Osman, *Dilsüz,* Simitlü Bölükbaşı, ele geçerek, başları kesildiğinden başka, Celali sekban ve levendlerinden iki yüze yakın kişi öldürüldü"; "Bu paşa (Kurt Ahmet – ***E.İ.***) mühafazasına memur olduğu sancaklardan birisi olan Kırşehir`i yedi sekiz yaşındaki kardeşi Derviş`e aldığını iddia ederek, üç dört yüz atlı "levendat" ile geldi. Sekbanları "*Tanrıbilmez", "Kabresığmaz", "Dardoğan"* gibi, acaip adlar ile anılıyorlardı… "Bundan maada, yetmiş ve seksen levendata Tanrıbilmez dediği zalimi baş ve buğ nasbedüp" valide haslarının reayasını soymaya yollamıştı"[44].

Dastanda adları çəkilən Şah Abbas və Sultan Muradla bağlı olan bir sıra faktların dəqiqləşdirilməsinə ehtiyac duyuruq. Dastanın Tiflis nüsxəsində hər iki Şah Abbasdan danışılır. Göstərilir ki, I Şah Abbasın ölümündən sonra onun taxt-tacına II Şah Abbas sahib olur: "...Şah Abbasi - əvvəl vəfat edüb, Şah Abbasi-sani onun

---

[40] Ankara Ş.Sc. Nr. 6, S.257. – M.Aкdağ. Göstərilən əsəri. – S.386, 511.
[41] Azərbaycan tarixi. – B., 1994. – S.473, 474.
[42] Müh. def. №75, S.330. – M.Aкdağ. Celali İsyanları. – S.472.
[43] A.Təbrizli. Göstərilən əsəri. – S.94-95.
[44] M.Aкdağ. Göstərilən əsəri. – S. 427, 428, 480.

yerində təxti-səltənətə əgləşdi"[45]. Tiflis nüsxəsində Koroğlunun atası Mirzə bəyin gözlərini Şah Abbas çıxartdırır.

Burada tarix dəqiq göstərilməmiş, səhvə yol verilmişdir. Tarixdən məlumdur ki, I Şah Abbasdan sonra nəvəsi Şah Səfi hakimiyyətə keçir (1629-1642), lakin ölkəni idarə edə bilmədiyi üçün oğlu II Şah Abbas 1642-ci ildə onu devirib hakimiyyəti ələ alır. O, 1666-cı ilə qədər hakimiyyətdə olur[46]. Bu haqda Azərbaycan Sovet Ensiklopediyasının VIII cildində də məlumat verilir[47].

Dastanın Paris nüsxəsində isə II Şah Abbasın adı çəkilir. A. Xodzko da Paris nüsxəsinə əsasən Koroğlunun II Şah Abbasın hakimiyyəti illərində Azərbaycanda yaşadığını, Ərzurum yolu üzərində soyğunçuluq, yolkəsənlik etdiyini və Təkə soyuna mənsub bir türkmən olduğunu yazır.

Bizcə, burada söhbət 1587-1629-cu illərdə[48] hakimiyyətdə olmuş, aşıqlar arasında tanınmış I Şah Abbasdan gedir. Cəlalilər üsyanının şiddətli vaxtı, həqiqətən, tarixən I Şah Abbas dövrünə təsadüf edir. Koroğluya isnad edilən bəzi şeirlərdən bunu duymaq olar:

*Koroğlu der: bu məniyə dalmaya,*
*Müxənnətlər bu dünyada qalmaya,*
*İstambulun xəracını almaya,*
*Şeyx oğlunun qızılbaşı gərəkdir*[49].

Və ya:

*Koroğlu, gəldilər savaş qurmağa,*
*Qoçaqların muradını verməyə,*
*Kos, nağara çalınır qan almağa,*
*O Şeyx oğlu Şah Abbasın günüdür*[50].

Dastanda adı çəkilən Sultan Murad da tarixi şəxsiyyətdir. Paris nüsxəsində hər iki hökmdarın – Şah Abbas və Sultan Muradın adı çəkilir. Misal üçün: "Bilmirsənsə bil ki, mən Rum xotkarı Sultan Muradın qızı Nigar xanımam"; "Şah Abbas çox israr etdi, amma Koroğlu razılaşmadı"[51].

Bu nüsxədə Sultan Murad Türküstan şahı kimi təqdim edilir. Türküstan dedikdə, görünür, Osmanlı Türkiyəsi nəzərdə tutulur. Çünki Sultan Murad Os-

---

45 Koroğlu (Tiflis nüsxəsi), XIX məclis. – B.: Səda, 2005. – S.439.
46 Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək), I cild. – B., 1994. – S. 483, 493.
47 Azərbaycan Sovet Ensiklopediyası, VIII cild. – B., 1984. – S.408.
48 Azərbaycan Sovet Ensiklopediyası, X cild. – B., 1987. – S.473.
49 Ə. Qaracadaği. Şeirlər məcmuəsi – Azərbaycan dastanları, IV cild. – B., 1969. – S.491.
50 S.Mümtaz. El şairləri, II cild. – B., 1935. – S. 241.– Azərbaycan dastanları, IV cild, B., 2005. – S.508.
51 Koroğlu (Paris nüsxəsi). – B.: Ozan, 1997. – S.48, 192.

manlı dövlətinə hökmranlıq etmişdir. Araşdırılan dövrə daha uyğun olan III Sultan Muraddır (1574-1595).

Məlumdur ki, Osmanlı tarixində dörd Sultan Murad hakimiyyətdə olmuşdur. I Şah Abbasın dövründə (1587-1629) III Sultan Murad (1574-1595) Türkiyə sultanı olmuşdur. III Sultan Muradla IV Sultan Muradın hakimiyyət illəri (1623-1640) arasında III Sultan Mehmed (1595-1603), I Sultan Ahmed (1603-1617), I Sultan Mustafa (1617-1618), II Sultan Osman (1618- 1622), I Sultan Mustafa (yenidən – 1622-1623) Türkiyəyə sultanlıq etmişlər.

Xatırladaq ki, Tiflis nüsxəsində adı çəkilən Türkiyə hökmdarı Sultan Mahmud – Nigar xanımın atası, bəlkə də, III Mehmeddir. "Koroğlu" epos olduğu üçün hadisələr də, tarixlər də, adam və yer adları da qarışıq düşə bilər. Güman ki, Tiflis nüsxəsində də Mahmud Mehmedlə qarışıq düşmüşdür.

Tarixi mənbələrdən görünür ki, III Sultan Muradın 8 il, IV Sultan Muradın isə 6 il sultanlığı I Şah Abbas dövrünə təsadüf edir. Paris nüsxəsinin "Qeydlər və şərhlər" bölməsində göstərilir ki, dastanda adı çəkilən Sultan Murad tarixi şəxsiyyətdir. O, IV Sultan Murad adı ilə 1623-1640-cı illərdə Türkiyə sultanı olmuşdur (s.199). Bizcə, Koroğlu hər iki Sultan Muradın hakimiyyəti illərində yaşamışdır. Dastandan görünür ki, Koroğlu uzunömürlü olmuşdur. Fikrimizi təsdiqləmək üçün Təhmasib, H.Əlizadə nəşrlərinə və Türk variantına müraciət edək.

Təhmasib, H.Əlizadə nəşrlərindən:

*Titrəyir əllərim, tor görür gözüm,*
*Mənmi qocalmışam, ya zəmanəmi?*

Türk variantından:

*Köroğlu der, yarım gelmez,*
*Akan gözüm yaşın silmez*
*Eski gençlik ele girmez*
*Kocaldım Ayvaz, pir oldum*[52].

"Koroğlu" dastanının Antep rəvayətində göstərilir ki, Bağdad paşası Koroğlunun üç dəlisini (Dəli Həsən, Dəmirçioğlu, Dağıstanlı Həsən) əsir götürür. Bu zaman eşidir ki, Əcəm, yəni İran şahı 100 minlik bir ordu ilə Bağdadı almağa gəlir. Sultan Murad kömək göndərənə qədər Bağdad paşası tutduğu dəlilələrin vasitəsilə Koroğludan yardım istəyir: "Acem Şahı yüz bin kişilik bir ordu ile Bağdat`ı almak için harekete geçmiş. Bizim burada kuvvetimiz on iki bin kişi. Bununla Acem Şahı ordusuna gücüm yetmez. Bağdat elden geder. Bizler de harp esiri oluruz. Köroğlu yardımımıza ulaşırsa Bağdat`ı şindilik müdafaa eder

52 Ö.Yağcı. Köroğlu, Yaşamı ve Bütün Şiirleri. – İst.: Gün Yayınları. – S.219.

düşmanı oyalarız. O zamana kadar Sultan Murat bize kuvvet gönderir, muhasarayı açar, biz de kurtuluruz Bağdat`ta"[53].

Tarixi mənbələrdə göstərilir ki, Bağdad 1534-1623-cü illərə qədər Osmanlı dövlətinin tabeliyində paşalıq imiş. 1623/1624-cü ildə Bağdadda baş vermiş qiyamdan istifadə edən I Şah Abbas İraqi-Ərəbi ələ keçirmiş, Bağdad, Bəsrə, Mosul, Nəcəf və Kərbəla şəhərlərini tutmuşdur[54]. Eyni zamanda "Azərbaycan tarixi" kitabında yazılır: "Bağdad uğrunda ikiillik mübarizə də Səfəvi qoşununun qələbəsi ilə qurtardı (1624-1626)"[55]. A.Təbrizlinin "Tarix kitabı"na yazılmış şərhlərdə göstərilir ki, 1623-cü ildə Şah Abbas Bağdadı türklərdən ikinci dəfə geri almışdır[56].

Bu tarixi hadisə ilə Antep rəvayətindəki hadisə bir-birinə uyğundur. Ola bilsin ki, Koroğlu öz əsgərləri ilə Bağdadda Osmanlı qoşununa kömək etmişdir. Mülahizələrə görə, Koroğlunun rəvayətdə adı çəkilən Sultan Muradın (IV Sultan Murad) vaxtında (1623-1640) hələ həyatda olduğu güman edilir. O yaşlaşmış, ixtiyarlaşmışdır. Koroğlu IV Sultan Murad dövründə qocaldığı üçün əsgərləri yalnız döyüşə ruhlandıra bilərdi. Antep rəvayətində göstərilir ki, Koroğlu bu döyüşdə əvvəlki kimi nərələr çəkib dağı-daşı yerindən oynatmır. Əsgərlərini arxa tərəfdən seyr edir, əmrlər verir və döyüşə ruhlandırırmış. Koroğlunun əsas fəaliyyəti III Sultan Muradın hakimiyyəti dövründə olub. Fikrimizi müxtəlif faktlarla təsdiqləyək: Tarixdən məlumdur ki, Osmanlı – Səfəvi müharibəsinin ikinci mərhələsi (1578-1590) III Sultan Murad dövründə açılmışdır. Koroğlu da 1585-ci ildə Özdəmiroğlu Osman paşa ilə İran səfərində olmuş və Osman paşaya iki şeir həsr etmişdir. Şeirin biri paşanın ölümündən əvvəl – Şirvan üzərinə hücum zamanı, ikincisi isə Təbriz alınandan sonra – Osman paşanın öz əcəli ilə ölümü zamanı söylənmişdir. Koroğlunun varlığını və zamanını təsdiqləyən bu şeirlərdən ikincisində Sultan Muradın adı çəkilir:

*Köroğlu söyledi yine bu sözü*
*Felek toprağa düşürdü gül yüzü*
*"Aldım Demirkapı ile Tebriz`i*
*Şarım* teslim eylen Sultan Murad`a"*[57].

Bütün bu sitat və dəlillər Koroğlunun III Sultan Murad dönəmində yaşadığını və tarixi şəxsiyyət olduğunu göstərir. Bu cür sitatların sayını artırmaq da mümkündür.

[53] Hüseyin Bayaz. Köroğlu (Antep Rivayeti). – Karacan Yayınları, 1981. – S.323.
[54] Azərbaycan Sovet Ensiklopediyası, VIII cild. – B., 1984. – S. 406.
[55] Azərbaycan tarixi , I cild. –B., 1994. – S.483.
[56] A.Təbrizli.Göstərilən əsəri. – S.526.
* şar- şəhər
[57] C.Öztelli. Köroğlu – Dadaloğlu – Kuloğlu. – İst., 1984. – S.123.

Biz də bu tarixi faktlara söykənərək deyə bilərik ki, Koroğlunun Cəlali kimi əsas fəaliyyəti III Sultan Murad dövrü ilə bağlıdır. Bu dönəmdə Anadoluda üsyanların ardı-arası kəsilmirdi, qan gövdəni basmışdı. Koroğlu da həmin dönəmin bəlli sərkərdəsi idi. O, bir "Cəlali" başçısı kimi bu zaman şöhrətlənmişdi.

Dastanda Koroğlunun düşmənləri kimi xatırlananların əksərən tarixi şəxsiyyətlər olduğunu qaynaqlar, araşdırmalar təsdiqləyir. "Koroğlu" dastanında əsas düşmən surəti olan Toqat paşası Hasan paşanın tarixi şəxsiyyət olması əsaslandırılır.

Eynilə Bolu bəyinin də tarixi şəxsiyyət olmasını göstərən mənbələr vardır. F.Sümer Bolu bəyinin Osmanlı sancaq bəyi olduğunu bildirir[58]. C.Anadol da Bolu bəyinin şəxsiyyətini təsdiqləyir: "Onun (Koroğlunun –***E.İ.***) ortaya çıktığı devrede; Osmanlı hükümdarı Sultan III. Murad, sadr-ı azamlar Damad Ahmed, Kıbrıs Fatihi Lala Kara Mustafa Paşa, Ferhad Paşalardır. Bolu Beyi İstanbul`dan gönderilen bir devlet memuru olup, önce Mehmed Bey, sonra Çorum`dan getirilen Behram Bey`dir"[59].

Dastandakı Ərzurum paşası Cəfər paşa da tarixi şəxsiyyət kimi təqdim edilir:"Təbrizdəki türk qalasının qalabəyisi Cəfər paşa Təbrizdən çıxaraq nəinki onun ətrafındakı yerləri, habelə Azərbaycanın cənub hissəsindəki bir çox əraziləri ələ keçirməyi mümkün saydı"[60]. A.Təbrizlinin "Tarix kitabı"nda Cəfər paşa haqqında ətraflı məlumat verilir.[61]

A.Bakıxanovun "Gülüstani-İrəm" əsərində də Cəfər paşadan söz açılır: "Hicri 993-cü (1585) ildə, Cəfər paşa Dərbənddən gedib, əhalisi baş qaldırmış olan Kürə qalasını aldı və qarət etdi"[62].

"Azərbaycan tarixi" kitabında da məlumat verilir ki, Osmanlı qarnizonunun komandanı Cəfər paşa, Təbrizin zəbt edilməsindən təqribən 6 ay sonra, 1586-cı il fevralın 7-də şəhərdə yaşayan 1500 nəfərin ağır vəziyyəti barədə İstanbula məlumat verir. Eyni zamanda göstərilir ki, 1591-ci ildə Təbrizdə baş vermiş üsyanı yatırmaq üçün Təbriz hakimi Cəfər paşa kürd feodallarının köməyi ilə üsyançıları qanlarına qəltan elədi[63].

M.Akdağdan da bir fakta diqqət yetirək: "Tebriz muhafazasına memur olan Vezir Cafer Paşa da, kale muhafızlığına ayrılan Anadolu timar ve zeamet erbabının, emre itaat etmemelerine cevap olarak, hepsini açıkta bırakıp, dirliklerini yeni kimselere verdi. Ferhat Paşa, 1586 ( Hicri 994) serdarlığında, daha geniş ve kesin bir yetki ile hareket ederek, kendisinden önceki serdarların bütün kararlarını bozmaya kalktı"[64].

---

[58] F.Sümer. Oğuzlar. – B., 1992. – S.193.
[59] C.Anadol. Koçyiğit Köroğlu. – İst., 1997. – S.20.
[60] İ.Münşi. Tarix-i aləm arayi Abbasi. – S.356; B.Kütükoğlu. – S.181-182. -- O.Əfəndiyev. Azərbaycan Səfəvilər Dövləti. – B., 1993. – S.285.
[61] A.Təbrizli. Göstərilən əsəri. – S.56, 103, 470 və s.
[62] A.Bakıxanov. Gülüstani-İrəm. – B., 1951. – S.112.
[63] Azərbaycan tarixi. – B., 1994. – S.468, 469.
[64] M.Aкdağ. Göstərilən əsəri. – S.315.

Mənbələrin əksəriyyətində Cəfər paşa Təbriz (Təbriz o zaman Osmanlı dövlətinin tabeçiliyində idi) hakimi kimi göstərilir.

*Dastanda tarixin izlərini duymaq cəhətdən başqa bir fakt.* M.H.Təhmasib nəşrinin "Qulun qaçması" qoluna diqqət yetirək: Əhməd tacirbaşının göndərdiyi qul qaçıb Ələmqulu xana sığınır. Dəmirçioğlu, Tanrıtanımaz, Gürcüoğlu Məmməd onun arxasınca buraya gəlirlər. Ələmqulu xan qızı Ruqiyyə xanımın məsləhəti ilə dəliləri cah-cəlalla qarşılayır, qurbanlar kəsdirir. Koroğlu gəlir, şəhərin kənarında çadır qurulur, Ələmqulu xan üç gün, üç gecə qonaqlıq verir.

İrəvan bəylərbəyisi Əmirgünə xan Anadolu Cəlalilərini necə qarşılayırsa, dastandakı Ələmqulu xan da Koroğlu və dəlilərini o cür qarşılayır. Deməli, Əmirgünə xanın cəlaliləri qarşılaması hadisəsi "Qulun qaçması" qolunun əsasını təşkil edir. Bu fikri M.H.Təhmasib də təsdiqləyir, dastandakı Ələmqulu xanla Əmirgünə xanı eyniləşdirir[65].

Bu, tarixi bir faktdır: Əmirgünə xan Koroğlunun, Dəmirçioğlunun və Tanrıtanımazın müasiri olub. "Qulun qaçması" qolunda da qulun dalınca Dəmirçioğlu, Tanrıtanımaz və Gürcüoğlu Məmməd gedirlər. Dəlilərin gecikməsindən narahat olan Koroğlu dəstəsi ilə yetişir.

Dastanın "Qulun qaçması" qolundakı Ələmqulu xan tarixi Əmirgünə xanın prototipidir.Bu fikri bir çox mənbələr təsdiqləyir.Salnamələrə, o cümlədən Ə.Ə.Rəhmaninin yazdığına görə, Ərzurum vuruşundan sonra (1608) Anadolu Cəlaliləri təqibdən yaxa qurtarmaq üçün İrəvan bəylərbəyisi Əmirgünə xanın vasitəçiliyi ilə I Şah Abbasa müraciət edib sığınacaq istəyirlər. Əmirgünə xan onları təntənə ilə qarşılayır. Hətta Şah Abbasın saray tarixçisi İsgəndər Münşinin (1560/61-1634) yazdığına görə, Əmirgünə xan bu Cəlalilərə müxtəlif ənamlar, xələtlər, vəzifələr, bir neçə gün davam edən təntənəli qonaqlıq verir[66].Deməli, Koroğlu Cəlali üsyanları başçılarından biridir. Ələmqulu xan da elə tarixi Əmirgunə xandır.

Dastanın tarixlə səsləşməsi baxımından eyni zamanda Koroğlunun doğulduğu yeri izləmək maraq doğurur. Bəzi variantlarda Koroğlunun kəndinin adı Muradbəyli olduğu göstərilir. Bunu Koroğlunun öz dili ilə söylədiyi sözlərlə təsdiqləyirlər:

*Yerim xəbər alsan, Muradbəyliyəm...*
*Muradbəyli derlər bizə...*[67]

Bəzi mənbələrdə Muradbəylinin Türkiyə ərazisində yerləşdiyi diqqətə çatdırılır. Dastanda göstərilir ki, Alı kişi Çənlibeli çox yaxşı tanıyır. Orada Qo-

---

[65] M.H.Təhmasib. Azərbaycan xalq dastanları (orta əsrlər). – B., 1972. – S.170.
[66] А.А.Рахмани. Тарих-и алам арай-и Аббаси как источник по истории Азербайджана, Б., 1960. – Стр.113-114. – M.H.Təhmasib. Azərbaycan xalq dastanları (orta əsrlər). – B., 1972. – S.171.
[67] Azərbaycan dastanları, IV cild. – B., 1969. – S. 203, 335.

şabulaq olduğunu nəql edir. Bu da onu göstərir ki, Muradbəyli Çənlibelin yaxınlığında yerləşirmiş. Muradbəylinin Türkiyədə yerləşdiyini C.Anadol da təsdiqləyərək yazır ki, Koroğlunun soyu Trabzon tərəflərində olan Murad xanlarından gəlir[68].

"Koroğlu" dastanının Təhmasib nəşrini bir neçə yerində Alacaların adı çəkilir: *Alacalardan* aşanda / Ərzurumu dolaşanda[69]. Şeirdən aydın olur ki, Aşıq Cünun Ərzurumu dolaşarkən Alacalardan keçmişdir. Şeirdən göründüyü kimi, Alacalar Ərzurum yaxınlığında yerləşirmiş. Bu fikri tarixi mənbələr də təsdiqləyir. Misal üçün, 1514-cü ildə Çaldıranda baş vermiş Osmanlı – Səfəvi müharibəsindən bəhs edərkən Heydər Çələbi "Ruznamə"sində yazır: "Ərzuruma tabe olan *Alacalar* adlı yerdə əvvəlcə qızılbaşlardan gələn elçilər qətlə yetirildilər"[70].

Azərbaycan Sovet Ensiklopediyasında göstərilir ki, "1608-ci ildə *Alaca* vadisində Sultan ordusu üsyançıları ağır məğlubiyyətə uğratdıqdan sonra üsyan zəifləməyə başladı…"[71].

Şahin Mustafayevin *"Восточная Анатолия от Ак-Коюнлу к Османской империи"* ("Şərqi Anadolu Ağqoyunlulardan Osmanlı imperiyasına qədər") kitabında *Alaca* Xarput sancağında bir kənd kimi göstərilir, Alaca ipəyinin Tire və Erzincanda tanındığı bildirilir[72].

Tarixdən məlumdur ki, Sultan ordusu ilə Cəlalilər arasında ən böyük vuruşma Ərzurumda olmuşdur. Deməli, Alacalar real yer adıdır və Ərzurumda yerləşir. Koroğlunun şəxsiyyətini, yerini müəyyən etmək üçün önəmlidir. M.Akdağın əsərində də Alaca real yer kimi göstərilir: "Marmara Bölgesi en karışık yerlerinden birisi de İznik – Adapazarı – Bolu çizgisi yanlarına düşen Akya, Taraklı, Göynük, *Alaca*, Düzce çevreleri idi[73].

Bundan başqa, Cəlalilərə aid tarixi qaynaqlarda, salnamə və yaddaşnamələrdə verilən təfərrüatla "Koroğlu" dastanının ayrı-ayrı qollarındakı hadisələr, əhvalatlar arasında bənzəyişlər, tarixi şəxsiyyətlərlə birlikdə toponimlərin eposdakı adlarla eyniyyət təşkil etdiyi də görünür.

Dastanda əks edilmiş kənd, şəhər, el, ölkə adları əksərən tarixi gerçəkliyə uyğundur. Cəlalilərə aid qaynaqlarda İstanbul, Ballıca, Bayazid, Toqat, Ərzurum, Kars, Dərbənd, Hələb, Üsküdar, Malatya, Gürcüstan, Bağdad, Bəsrə, Bolu, Karaman, Naxçıvan və s. xatırlanır.

Tarixdən məlumdur ki, Cəlalilərlə Osmanlı qoşunları arasında ən böyük vuruşma 1608-ci ildə Ərzurumda olmuşdur. Dastanın da qollarından birinin adı

---

68 C.Anadol. Koçyiğit Köroğlu. – İst., 1997. – S.13.
69 Koroğlu (Təhmasib nəşri). – B., 1949. – S.135.
70 Ş.F.Fərzəlibəyli. Azərbaycan və Osmanlı imperiyası. – B.: Azərnəşr, 1995. – S.172.
71 Azərbaycan Sovet Ensiklopediyası, X cild. – B., 1987. – S.411.
72 Ш.Мустафаев. Восточная Анатолия от Ак-Коюнлу к Османской империи. – М.,1994. – Стр.16, 186.
73 M.Akdağ. Göstərilən əsəri. – S.131.

"Ərzurum səfəri"dir. Dastanın əksər variantlarında bu qolla rastlaşırıq. Koroğlu dastanda Ərzurumda qanlı döyüş başlayır.

Dastanın variantların əksəriyyətində "Bağdad səfəri" qolu diqqətçəkicidir. Tarixi sənədlərə isnad edərək Bağdadın XVI əsrin sonu, XVII əsrin başlarındakı dövrdə Osmanlı dövlətinin tabeçiliyində olduğunu xatırlatdıq.

Tarixilik baxımından maraq doğuran məlumatlar sırasında Koroğlunun "Dağıstan səfəri" xüsusən diqqəti çəkir."Koroğlu" dastanının variantlarında Dərbəndin adı çəkilir (Koroğluyam, şöhrətim var Əcəmdə,/ Adım düşüb Dağıstanə, Dərbəndə – Tiflis nüsxəsi, s.628). M.H.Təhmasib, H.Əlizadə, V.Xuluflu nəşrlərində, Tiflis nüsxəsində, Antep və Maraş rəvayətlərində "Dağıstan səfəri" xüsusi yer tutur. Məlumdur ki, Dərbənd 1578 –1612-ci illərdə Osmanlının işğalı altında olmuşdur. Arakel Təbrizlinin yazdığına görə, Cəlalilər hərəkatı Dəmirqapıya qədər ərazini əhatə etmişdir. O yazır: "…Onların hamısı sultana itaət etməyən Cəlalilər idi. Onlar... Konstantinopoldan (İstanbul – ***E.İ.***) İrəvana, Bağdaddan Dəmirqapıya (Dərbənd – ***E.İ.***), Aralıq dənizindən Qara dənizə qədər olan ərazidə bütün ölkələri soyub-talayırdılar…"[74]. Dərbənddəki qalalardan birinin adının Koroğlu qalası adlanması da bununla əlaqədardır[75].

Koroğlunun Özdəmiroğlu Osman paşaya həsr etdiyi iki tarixi şeirindəki "*Demirkapı*`dan Şirvan`a geçildi, / Onca* savaş oldu, kanlar saçıldı…"; "Osman paşa eydür, devletlü Hünkar, / İnşallah Sultanım, *Şirvan* bizimdir..."; "*Şirvan* elinden Tebriz`e ulaştık…"; "Aldım Demirkapı ile *Tebriz*`i…"[76] misralarına diqqət yetirsək, Koroğlunun Özdəmiroğlu Osman paşanın qoşunu ilə Dərbənd, Şirvan və Təbriz səfərlərində iştirak etdiyi aydın olur.

Osmanlı imperiyasında olan məmləkət adlarının xatırlanması Koroğlu ilə məlumatları dəqiqləşdirir. Məsələn, Şam (Dəməşq), Hələb, Misir, Yəmən bunların sırasındadır.

*Xəbəri eləyün Urumdan, Şama,*
*Deyün, qoçaqlarım, ta mən gəlincə*[77].

*Gəzməgilən Şamu Hələb düzlərin,*
*Sənin üçün kömək edən tapulmaz*[78].

*Şamu, Hələb, Ərzurumdan bac aldı.*
*Ayrı düşdüm ulusumdam, elimdən*[79].

---

74 А.Даврижеци. Книга историй. – М., 1973. – Стр.95.
75 Azərbaycan Sovet Ensiklopediyası, III cild. – B., 1979. – S.418.
* onca- çox
76 C.Öztelli. Köroğlu, Dadaloğlu, Kuloğlu. – İst., 1984. – S.122-124.
77 Koroğlu (Paris nüsxəsi). – B.: Ozan, 1997. – S.23.
78 Koroğlu (Tiflis nüsxəsi), VI məclis.– B.: Səda, 2005.
79 Koroğlu (Tiflis nüsxəsi), XIV məclis. – B.: Səda, 2005.

*Gəzəcək Misiri, Şamı, Osmanı,*
*İgid gərək qabağında tablasın*[80].

*Axtarın Hələbi, gəzin Mısırı,*
*Bağlayın yolları, kəsin cəsiri*[81].

Tiflis nüsxəsində Xumar xanımı gətirmək üçün Koroğlunun *Misirə* səfəri, Hüseyn paşa ilə vuruşu və ona qalib gəlməsindən söz açılır.

Xatırladırıq ki, dastanın variantlarında *Yəmənin* də adı qeyd edilir:

*Əl verərsə İran, Turan xanıyam,*
*Zəbt etmişəm Hindi, Yəmən mənimdi!*[82]

*Bağdat`tan Basra`dan Yemen`den beri*
*Gündoğandan günbatana benimdir*[83].

Məlum olduğu kimi, Krım xanlığı 1475-ci ildə Türkiyənin vassallığına keçmişdir. Krım xanlığı Rusiya və Səfəvilərlə müharibələrdə, adətən, Türkiyənin müttəfiqi olmuşdur. Səfəvi – Osmanlı müharibələri zamanı Krım xanlığının qoşunları Azərbaycana da basqınlar (1578-1582-ci illərdə 4 dəfə) etmişdir. 1774-cü ilə qədər Krım xanlığı Türkiyənin vassallığında olub.

"Koroğlu" dastanının Antep və Maraş rəvayətlərində Koroğlu Osmanlı ordusuna qoşularaq rus ordusu ilə vuruşur, partizan müharibəsinə keçir, qəhrəmanlıqlar göstərir, düşmən üzərində qələbə çalır. Osman paşası bu zəfəri padşaha çatdırır. Padşah ona Sivastopul (Sevastopol – ***E.İ.***) qəhrəmanı adı verir. Maraş rəvayətində Koroğlunun rus müharibəsinə getməsindən də danışılır: "Köroğlu evvelce o, Rus müharibesine gidince askerine söylediği…" bir qoşma söyləyir[84].

Və yaxud:

*Köroğlu yiğit merd*
*Sivastopolun Kürdüyüm…*

*Ben Çamlıbel`in kuduyum*
*Yiğit Beyler sürü ilen*[85].

---

[80] Yenə orada. – S.327.
[81] Koroğlu (Xuluflu nəşri). – B., 1999. – S.33.
[82] Koroğlu (H.Əlizadə nəşri).– B., 1941. – S.194.
[83] Maraş Rivayeti, q.9.
[84] Maraş Rivayeti, q.77.
[85] Yenə orada. – S.101.

İnan Abdülkadirin "Köroğlu`na Ait Notlar" adlı məqaləsində "Koroğlu"dan topladığı "Kırım kolu"nda Koroğlunun Krım xanı Şahin Girayla savaşından söz açılır[86]. Halil Bedi Yönetken "Köroğlu Kırımda" adlı məqaləsində "Ben Bir Köroğluyum dağda gezerim" misrası ilə başlayan türkünün Krımda söylənən variantını vermişdir[87]. Bu məqalələrdən görünür ki, Koroğlu üsyanı Krımı da bürümüşdü.

Tarixi salnamələrdən bilirik ki, XVI əsrin sonlarında Özdəmiroğlu Osman paşa qoşunu ilə Dəmirqapıda olarkən 1582-ci ildə dövlətdən qüvvət istəyir. Hökumət də Avstriya müharibəsindən qaçanları, fərariləri əfv edərək Dəmirqapıya göndərirdi. Əsgərlər Osman paşaya kömək üçün Trabzon və Samsundan gəmilərlə Kəfəyə gəlmiş, Dəmirqapıya Krım – Kəfə (XIII–XVIII əsrlərdə Feodosiya şəhərinin adı –ASE, V c., B., 1981, s.360) yolu ilə getmişdilər: "…Nihayet, Demir Kapu`da bulunan Özdemir Osman Paşa`nın 1582-de, hükümetten kuvvet istemesi üzerine bütün Rum (Sivas) ve Karaman vilayetleri Anadolu vilayetinden de bazı sancakların askerleri bu vazifeye memur edildiler. Trabzon ve Samsun iskelelerinden gemilerle Kefe`ye çıkılarak, oradan Demir Kapu`ya gidilecekti..."[88]; "…Yine o sıralarda Özdemiroğlu Osman Paşa Şirvan`dan Kefe`ye geldi (991/1583) ve Mehmed Giray`ın hanlıktan azledilerek, yerine kardeşi İslam Giray`ın nasbedildiğine dair padişahın fermanını da getirdi"[89].

Bu sitatlara dayanaraq ehtimal edə bilərik ki, Koroğlu da Osman paşanın ordusu ilə Krımda – Kəfədə olmuşdur. Həmin dövrdə Krım rus kazaklarının hücumuna məruz qalmışdı[90].A.Bakıxanovun yazdığına görə, Rus çarı Fyodor İvanoviç (1584-1598) 1594-cü ildə Dağıstana üç min qoşun göndərib Sulaq çayı kənarında Qoysu adlı bir şəhər saldırdı. Boris Qodunov da Rusiya taxtına oturunca (1598-1605) Dağıstanda öz hakimiyyətini möhkəmləndirmək üçün üç qala tikdirdi. 1604-cü ildə Sultan Bud Çərkəzistandan on üç min əsgər gətirib qardaşı Gəray xan Şamxal və Krım tatarlarının yardımı ilə hər üç qala üzərinə hücum etdi. Bu vuruşda ruslar qırılıb məhv oldular[91].

Bəlkə də Antep və Maraş rəvayətlərində olduğu kimi, Koroğlu da dəstəsi ilə Krımda rus kazaklarına qarşı vuruşlarda iştirak edib, qəhrəmanlıq göstərib. Ona görə də ona Sevastopol qəhrəmanı adı verilib. Bunlar, əlbəttə, ancaq bir ehtimaldır. Haqqında düşünməyə, araşdırmalar aparmağa dəyən bir ehtimaldır.

---

[86] A.İnan. Köroğlu`na Ait Notlar. – HBH, 1930. – S:92.
[87] H.B.Yönetken. Köroğlu Kırımda, TFA, cilt: 1I , 1968. – S.223. – C. Anadol . Koçyiğit Köroğlu. – İst., 1997. – S.63.
[88] Müh. def. № 55, S.102, 105 (Rum beylerbeyisine bu hüsusta hükümler) – M.Aкdağ. Göstərilən əsəri. – S.312.
[89] Müneccimbaşı. Sahaifü`l Ahbar. – İst., 1868 – Giray Saynur Altuğ. Hanlık Döneminde Kırım. – Türk Dünyası Araştırmaları, Nisan 2000. – S.125.
[90] H.İnalcık. Kırım Hanlığı. – Ank.,Т.Д.Е.К., 1992.–S.53– Giray Saynur Altuğ. Hanlık Döneminde Kırım, Türk Dünyası Araştırmaları, Nisan 2000. – S.125.
[91] A.Bakıxanov. Gülüstani-İrəm. – B., 1951. – S.115.

Göründüyü kimi, bir sıra tarixi dəlillər də Koroğlunun XVI əsrin sonu, XVII əsrin başlarında yaşadığını, Cəlali başçılarından biri kimi tanındığını və Anadolu mühiti ilə bağlılığını təsdiqləyir. İstər ayrı-ayrı salnamələrdən, istərsə də dastanın özündən gətirdiyimiz faktlar Koroğlunun tarixi şəxsiyyət olduğunu əsaslandırır. Bütün bunlar Koroğlunun dastanlaşmış qəhrəmanlığının müxtəlif ərazilərdə geniş yayıldığını əks etdirən cəhətlərdir.

**Summary**

**ABOUT KOROGHLU'S TIME AND PERSONALITY**

***Elza İSMAYILOVA***
*(Khazar University)*

'Koroghlu' is a epoch of heroism, which has gained historical reputation. The area of Koroghlu Studies has considerably developed in the folk-lore investigations of the Turkic People. This field remains an important object of the specialists in folk-lore.

In the article the political-social and historical condition of Koroghlu has been carefully investigated. At the same time, in the article a number of historical evidences affirm that Koroghlu happened in the end of the $16^{th}$ century, or in the beginning of the $17^{th}$ century, known as one of chief Jalali's; and being connected with Anatolia surroundings. Either from some chronicles, or facts which brought from the epoch, it affirms that Koroghlu is an historic person.

Here the problem is investigated systematically. So, it does not give way to the probability, assumptions, which it is impossible to prove. Meaning that, this article will be able to help in illuminating the important stage of Koroghlu Studies from an historical point of view.